# Milli muzeyşünaslıqda müqayisələr

***Müstəqil Azərbaycanda baş verən tərəqqi prosesi elmin və təhsilin sürətli inkişafı ilə qarşılıqlı əlaqədə olduğundan, həmin sahələrə tarixi dövrlərin bütün mərhələlərində xüsusi diqqət yetirilmişdir. Bu təbiidir, çünki, ümumiyyətlə inkişafın hərəkətverici, təkanverici qüvvələri sayılan şəxsiyyətin formalaşdırılması prosesi məhz elm və təhsilin yetirdiyi mütəxəssis kadrların gücündən asılıdır. Yəni, elmin, təhsilin məqsədyönlü inkişafı olmadan, müxtəlif yaş qrupuna məxsus insanların fomalaşması, mənəvi və maddi baxımdan zənginləşməsindən danışmağına dəyməz.***

Yuxarıda qeyd etdiyimiz aparıcı sahələrin bir-biri ilə qarşılıqlı əlaqədə inkişafı hamımıza məlumdur. Belə məqsədyönlü və vacib inkişaf mərhələlərində mədəniyyətin mühüm rolu danılmazdır. Ona görə ki, elm və təhsilin tərəqqisində mədəniyyət təsisatları, vasitələri, faktları, materiallarından məqsədyönlü istifadə mühüm və vacib hesab edilir. Bu prosesdə elmi və mədəni zənginləşmə mərkəzlərindən hesab edilən muzeylər və daşınmaz tarixi - mədəniyyət abidələrimizin tədqiqinə böyük ehtiyac duyulur. Mədəniyyətimizin daha da tərəqqisində əsas, aparıcı vasitələr hesab edilən muzeylər və daşınmaz tarixi mədəniyyət abidələrinin mövcud vəziyyəti bizim hər birimizi düşündürməlidir. Məhz, muzeylər, oradakı eksponat, əşya, materiallar, dünya, ölkə və yerli əhəmiyyətli tarixi - mədəniyyət abidələrimizin tariximizi bu günə qədər yaşatması gücünü daha da qüvvətləndirmək prosesinə diqqətin artırılmasının vaxtı artıq çatmışdır.

Məlumdur ki, 2004-cü ildə Azərbaycanda dövlət muzeylərinin sayı 160 - a çatmışdır. Bunlardan 14-ü tarix, 34-ü memorial, 65 - i diyarşünaslıq, 38-i sənətşünaslıq, 9-u isə digər profilli muzeylərdir.

Muzeylərin nazirlik və idarələr üzrə bölgüsünə nəzər salsaq görərik ki, respublikamızda mövcud olan 160 muzeyin 151-i Respublika Mədəniyyət və Turizm Nazirliyinin, 4-ü Azərbaycan Milli Elmlər Akademiyasının, 1-i Təhsil Nazirliyinin, 1-i Səhiyyə Nazirliyinin, 1-i Kənd Təsərrüfatı Nazirliyinin, 2-si isə ayrı-ayrı nazirlik və idarələrin nəzdindədir.

Kəmiyyət nöqteyi - nəzərindən muzeylərin ilbəil artımına nəzər salsaq, görərik ki, Azərbaycanda 1990-cı ildə 124, 1995-ci ildə 145, 2000-ci ildə 155, 2001-ci ildə 156, 2002-ci ildə 159, 2003-cü ildə 159, 2004-cü ildə isə bu rəqəm 160 olmuşdur. 1990-1995-ci illər ərzində 21, 1995-2000-ci illər ərzində 10, 2001-2002-ci illər ərzində 3, 2003-2004-cü illərdə isə 1 muzey yaradılmışdır. Göründüyü kimi, say etibarilə muzeylərin artımı azalmışdır ki, bu da ölkədə baş verən ictimai - siyasi hadisələrlə bağlı olmuşdur. Hər halda muzeylərin say artımı prosesi baş vermişdir. Təbii qanunauyğunluq baxımından memarial muzeylərin ötən illər ərzində artımına böyük ehtiyac var idi, - desəm səhv etmərəm. Çünki, Azərbaycan tarixində bu günə qədərki müdriklərin, görkəmli şəxsiyyətlərin, dünya şöhrətli alim və ziyalıların, müxtəlif sənət fədailərinin memorial muzeylərinin yaradılması, həmin insanlar haqqında çox dəyərli əşya, eksponat, material və məlumatların nəsillərə ötürülməsi demək idi ki, bu da bu günki tariximiz, müstəqilliyimiz üçün çox vacib sayılır. Yəni, bu günə qədər mövcud olan 34 memorial muzey az saydadır və orada nümayiş etdirilən eksponat və materiallarla Azərbaycanın dahi şəxsiyyətlərinin əksəriyyəti haqqında dolğun fikir, təəssürat yaratmaq qeyri -mümkündür. Bu fakt da özlüyündə mədəniyyətşünaslarımıza, muzeyşünaslarımıza, tənqidçilərimizə memorial muzeylərimizin mövcud durumu haqqında heç də haqq qazandıra bilməz, çünki 1990-cı ildən 2004-cü ilə qədərki 14 il ərzində 7 memorial muzeyin yaradılması Azərbaycan kimi çoxmilyonlu ölkə üçün çox azdır.

Muzeylərdə əsas fond eksponatlarının sayına nəzər salsaq görərik ki, 1990-2004-cü illər göstəricisində bu say ancaq 2000 - ci ildə yüksək, - 1 151 000 ədəd olmuşdur. Yəni, əsas fond eksponatlarının sayı 1990-cı ildə 895 000, 1995-ci ildə 1 036 000, 2000-ci ildə 1 151 000, 2001-ci ildə 1 124 000, 2002 - ci ildə 1051000, 2003-cü ildə 1 036 000, 2004-cü ildə isə 1 056 000 ədəd olmuşdur. Göründüyü kimi, Azərbaycanda 2000-2004-cü illərdəki elmi - texniki inkişafın artımı, əhalinin güzaranının daha da yaxşılaşdırılması ilə müqayisədə muzeylərdəki əsas fond eksponatlarının artımının yox, əksinə azalmasının şahidi olduq. Eyni zamanda bu eksponatlar içərisində 2000-ci ildə 77 000 ədədin, 2001-ci ildə isə 100 000 ədədin, 2004-cü ildə isə 89 000 ədəd eksponatın bərpaya ehtiyacı olmuşdur. Əlbəttə, belə göstəricilər inkişafda olan müstəqil respublikamız üçün heç də ürək açan deyil. Yəni eksponatların bərpasına diqqət və qayğı artırılmasa, əsrlərin yadigarı olan qiymətli nümunələrimizi tez bir zamanda itirə bilərik.

Muzeylərimizdə bərpası tələb olunan eksponatların azalmaması, təxminən 77 000 -dən 100 000-dək sayda olması göstərir ki, bərpa prosesində sistemli iş aparılmır, bu sahədə vahid mexanizm əsasında təkmilləşdirmənin həyata keçirilməsinə diqqəti artırmaq vaxtı çatmışdır.

İl ərzində nümayiş etdirilən eksponatlara nəzər salsaq , görərik ki, 1990-2004 -cü illər ərzində yalnız 1995-ci ildə yüksək sayda - 227 000 eksponat nümayiş etdirilmişdir. Bu rəqəm 1990-cı ildə 168 000, 2004-cü ildə isə 215 000 olmuşdur. Bundan ötrü isə muzeylərin fəaliyyətindəki qeyri - stabillik, planauyğunsuzluq, aid olduqları nazirlik və təşkilatlar tərəfindən nəzarət işinin zəifliyi, təşkilatsızlığı və s. digər səbəblərin özünü göstərməməsindən ötrü muzey əhəmiyyətli prinsiplərə məqsədyönlü şəkildə əməl edilməsi vacibdir.

Muzey fəaliyyətinin əsas istiqamətlərindən sayılan elmi - maarif işlərinin məqsədyönlü şəkildə təşkilinin əhəmiyyəti mühümdür. Təbiidir ki, bu işin keyfiyyəti, səmərəli nəticə verməsi bütövlükdə muzeyin fəaliyyəti ilə ölçülür. Eyni zamanda dövrün və mühitin nəbzinə uyğun, həm də təcrübəli mütəxəssislərin səmərəli, peşəkar fəaliyyətləri müasir tamaşaçı, seyrçi tələblərini ödəyə bilər. Əlbəttə, bundan ötrü əvvəlcə mühitin, tamaşaçı səviyyəsi və tələbatının muzeylər tərəfindən planlı şəkildə öyrənilməsi mexanizmləri həyata keçirilməli, alınan nəticələrə görə fəaliyyət mexanizminin bü günü, həm də perspektivi üçün müvafiq tədbirlər planlaşdırılmalıdır. Elmi - maarif işinin əsas vasitələrindən olan muzey mühazirələrinin təşkilinə nəzər salaq. Faktlara müraciət edək: 1990-2004-cü illər ərzində Azərbaycan muzeylərində təşkil edilən

mühazirələrin sayında qeyri - mütənasiblik mövcuddur. Belə ki, 1990-cı ildə muzeylərdə keçirilən mühazirələrin sayı 7600 idisə, 2002-ci ilə qədərki dövrdə kəskin azalma prosesi baş vermiş və 2002-ci ildə bu say 4113-ə enmişdir. Yalnız 2003-cü ildən bu sahədə artım baş vermişdir, yəni 2003-cü ildə 4228, 2004-cü ildə isə 6026 muzey mühazirəsi təşkil edilmişdir. Təəssüf doğuran hal ondan ibarətdir ki, 1998-ci ildən etibarən "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu fəaliyyət göstərdiyi halda, muzey işində zəiflik öz axarında davam etmişdir. Görünür, qüvvədə olan bu Qanuna lazımınca əməl olunmayıb.

Müqayisələr prosesində muzeyləri ayrı-ayrılıqda götürsək belə, təxminən yuxarıdakı nəticələr bir daha təsdiq olunur, yəni, əgər 1990-cı ildə orta hesabla bir muzeydə 66 mühazirə təşkil olunmuşsa, azalma davam etməklə bu rəqəm 2002-ci ildə 26-ya düşmüş, 2004-cü ildə isə 38-ə qalxmışdır.

Elmi - maarif işinin əsas vasitəsi hesab edilən muzeydaxili və muzeydənkənar sərgilərin təşkilinə nəzər salsaq görərik ki, bu sahədə də illərə görə kəskin dəyişmələr baş vermişdir. Muzeydaxili sərgilərin illər üzrə göstəricilərinə diqqət yetirsək, aydın olur ki, 1990-cı ildə 1467 sərgi keçirilmişdirsə, sonrakı 5 il ərzində ayrı - ayrı illər üzrə fərqli dəyişmələr olmuşdur, yəni 1995-ci ildə bu rəqəm kəskin şəkildə azalaraq 1305 olmuşdur, 2000-ci ildə 1513, 2001-ci ildə 1463, 2002-ci ildə 1373, 2003-cü ildə 1583, 2004-cü ildə isə 1548 sərgi təşkil edilmişdir. Orta hesabla bir muzeyə düşən sərgilərin sayında da dəyişiklik baş vermiş, 1990-cı ildə bir muzeyə 15 sərgi düşdüyü halda, 2004-cü ildə bu rəqəm 13-ə enmişdir.

Muzeylərdən kənarda sərgilərin təşkili mənzərəsində də rəngarəng enmə istiqamətli xətti andıran rəqəmlər diqqətimizi cəlb edir. Yəni, 1990-cı ildə belə 1195 sərgi təşkil edilmişdisə, 2004-cü ildə bu rəqəm 1081-ə enmişdir. Orta hesabla bir muzeyə düşən belə sərgilərin sayında da enmə mənzərəsi özünü göstərir. Yəni, 1990-cı ildə orta hesabla bir muzeyə 13 muzeydənkənar sərgi düşürdüsə, 2004-cü ildə bu rəqəm 10-a enmişdir. Bu, onu göstərir ki, sərgi işinin təşkilində vahid mexanizm, muzeylərarası qarşılıqlı əlaqəlilik, sistemləşdirmə işi həyata keçirilməyib, yaxud bu iş lazımi səviyyədə deyildir, desək yanılmarıq.

Muzeylərə təşkil edilən ekskursiyaların sayı da müqayisə baxımından maraq doğurur. 1990-cı ildən 2003-cü ilə qədərki dövr ərzində muzey ekskursiyaları getdikcə artmaq əvəzinə azalmışdır. Yəni, 1990-cı ildə 40 800 ekskursiya təşkil edilmişdisə, 2003-cü ilə qədərki, dövrdə illər üzrə bu rəqəm 34 300-ə enmiş, yalnız 2004-cü ildə isə bu say 42 800-ə çatmışdır. Orta hesabla bir muzeyə düşən ekskursiyaların sayı 1990-cı ildə 404 olmuşdursa, 2003-cü ilə qədərki dövr ərzində illər üzrə bu rəqəm azalaraq 247-yə düşmüş, yalnız 2004-cü ildə bir muzeyə 314 ekskursiya təşkil edilmişdir. Göründüyü kimi, muzeylərdə elmi-maarif işinin vasitələri sayılan muzey mühazirələri, sərgilər, ekskursiyaların 1990-cı ildən 2003-cü ilə qədər ki, dövrdə azalması prosesi baş vermiş, yalnız 2004-cü ildə bu tədbirlərin artımı baş vermişdir. Çox maraqlıdır ki, 1995-2003-cü illər ərzində həyata keçirilən tədbirlər artmamış, əksinə azalmışdır ki, bu da ölkə mədəniyyətinin inkişafının mühüm sahəsi hesab edilən muzeylərin fəaliyyətindəki belə qeyri - mütənasiblik qanunauyğun hal hesab edilə bilməz. Çünki 1995-2003-cü illər ərzində ölkə mədəniyyətinin inkişafı istiqamətində keçirilən elmi - yaradıcı təşkilati tədbirlər yetərincə olmuşdur. "Mədəniyyət haqqında" (1998-ci il) və "Muzeylər haqqında" (2000-ci il) Azərbaycan Respublikasının qanunları məhz həmin dövrdə qəbul edilmiş və qüvvəyə minmişdir. Eyni zamanda bu sahədə tədqiqatçıların araşdırmalarına böyük ehtiyac duyulur. Məhz bu fəaliyyətə mane olan səbəblərin, ziddiyyətliliyin aşkarlanması və vaxtında müvafiq tədbirlərin görülməsi vacib sayılmalıdır.

Məlum məsələdir ki, muzey fəaliyyətinin dinamik inkişafında kadr potensialının, mütəxəssis təcrübəsinin mühüm əhəmiyyəti vardır. Onu qeyd edim ki, 1990-2004-cü illər ərzindəki fəaliyyət göstəricilərilə kadr potensialının təmini bir - biri ilə tərs mütənasibdir. Bunu aşağıdakı faktlardan görmək olar. Muzeylərdə işçilərin sayının dinamikası 1990 - cı ildən 2004-cü ilə qədərki dövr ərzində (2001-ci ilin bəzi göstəricilərini nəzərə almasaq) getdikcə artmışdır, Azərbaycanda muzey işçilərinin sayı 1990-cı ildə 1578 nəfər olduğu halda, 2000-ci ildə bu rəqəm 2226-ya çatmışdır, 2001-ci ildə isə aşağı düşərək 2204-ə çatmış, 2004-cü ilə qədər isə artaraq 2384 nəfər olmuşdur, Profillərinə görə muzeylərdəki işçilərin sayına nəzər salsaq tarix muzeylərində nəzərə çarpacaq kadr dəyişikliyi baş vermiş, digər muzeylərdə isə bu proses artan xətt üzrə davam etmişdir.

Tarix muzeylərində 1990-cı ildə 423 nəfər, 1995-ci ildə isə 469 nəfər işçi olduğu halda, bu rəqəm 2000-ci ildə 355-ə enmiş, sonrakı illərdə enmə davam etmiş və 2004 -cü ildə 351 nəfər təşkil etmişdir.

Memorial muzeylərdə işçilərin sayı 1990-cı ildəki 236 nəfərdən 2004-cü ilə qədərki dövr ərzində 371 nəfərə çatmışdır ki, bu da qanunauyğunluq təşkil edir.

Diyarşünaslıq muzeylərində də bu illər ərzində işçilərin sayı artımla müşahidə olunur. Belə ki, 1990-cı ildə bu say 522 nəfər olduğu halda 2004-cü ildə işçilərin say dinamikası 801 nəfər təşkil etmişdir.

Sənətşünaslıq muzeylərində 1990-2002-ci illər arasında işçilərin say dinamikasında artım baş vermişdir. Yəni, 1990-cı ildə işçilərin sayı 330 nəfər olduğu halda, 2002-ci ildə bu rəqəm 557-yə çatmışdır, 2003-cü ildə isə azalma müşahidə edilmiş və 544-ə düşmüş, 2004-cü ildə isə bu say bir az da azalaraq 539-a enmişdir.

Digər pofilli muzeylərdə də artım posesi baş vermişdir. Belə ki, 1990-cı ildə işçilərin sayı 67 olduğu halda, 2004-cü ildə bu say 322-yə çatmışdır.

Respublika muzeylərində fəaliyyət göstərən işçilərin tərkib müxtəlifliyinin artımına diqqət yetirsək, aydın olur ki, muzey mütəxəssislərinin sayı qeyri - mütəxəssislərin sayından 1990-1995-ci illər arasında 50-60 faiz az olduğu halda, sonrakı illər ərzində bu faiz fərqi azalaraq 20-30%-ə çatmışdır. Rəqəmlərə müraciət etsək, görərik ki, 1990-cı ildə muzey mütəxəssislərinin sayı 533 nəfər təşkil edirdisə, 2004-cü ildə bu rəqəm 1005 nəfərə çatmışdır.

Digər işçilərin (qeyri - mütəxəssislər) sayı isə 1990-cı ildəki 1045 nəfərdən 2004-cü ildəki 1379 nəfərə çatmışdır. Bu cür nisbət təbii ki, muzey fəaliyyətindəki səmərə və keyfiyyətə müsbət yaxud mənfi təsiri ilə özünü göstərməlidir. Muzey müəssisələrinin mütəxəssis baxımından zənginləşdirilməsi prosesi müvafiq nazirlik və təhsil müəssisələrində aparılan kadr hazırlığı prosesi ilə sıx bağlı olduğundan, ölkənin hərtərəfli inkişafında bu, öz təsirini göstərir. Buna görə də mütəxəssis hazırlığı perspektiv inkişaf proqramı çərçivəsində nəzərə alınmaqla həyata keçirilməlidir. Qeyd olunmalıdır ki, muzey işçilərinin bu və ya digər səviyyədə artımı məqsədyönlüdür və gələcəkdə mütəxəssislərin sayının daha da artırılması diqqət mərkəzində olacaqdır. Lakin muzey mütəxəssislərinin yetişdirilməsi mahiyyət etibarilə milli mədəniyyətimizdə strateji əhəmiyyət kəsb etdiyinə görə bu prosesin diqqət mərkəzində olması vaxtıdır.

Maraqlı faktlardan biri də muzeylərdən olan qadın kontingentinin ümumi sayı, eyni zamanda bu tərkibdəki mütəxəssis və digər işçilər arasında olan fərqin müxtəlifliyidir. 2001-ci ildə qadın işçilərinin sayı 1638 nəfər idisə, 2004-cü ildə bu rəqəm artaraq 1777-yə çatmışdır. Bu tərkibdə 2001-ci ildəki qadın mütəxəssislərin sayı 711 nəfər olduğu halda, 2004-cü ildə isə bu rəqəm 757-yə çatmışdır. Digər işçilərin sayı isə 2001-ci ildə 927 idisə, 2004-cü ildə isə 1020 nəfər olmuşdur.

Mədəni-maarif – 3.2006


Doğrudur, 2000-2004-cü illər arasında qadınlardan ibarət muzey işçilərinin tərkibində yuxarıda göstərilən sayda artım olmuşdursa da, mütəxəssislərin sayındakı artım digər işçilərin sayındakı artımdan say və faiz etibarilə az olmuşdur. Yəni 5 il ərzində mütəxəssislərin sayındakı artım 46 nəfər təşkil edirsə, faiz etibarilə bu 6 %-dir. Qeyri - mütəxəssislərin sayı isə 5 il ərzində 93 nəfər təşkil edir ki, bu da 9% təşkil edir.

Göründüyü kimi, qadın muzey işçilərinin tərkibi etibarilə fərqliliyi bir daha mütəxəssis artımının az olduğunu göstərir. Lakin, bu nisbət əksinə dəyişməlidir, qeyri - mütəxəssislər mütəxəssislərlə əvəz olunması mərhələsinə başlanılmalıdır.

2004-cü ildə Respublikamızın iqtisadi rayonları üzrə muzeylərə gələnlərin sayında da fərqlilik özünü göstərir ki, bu göstəricilər iqtisadi rayonlarımızda muzeylərimizə olan münasibət baxımından maraq doğurur. Ümumiyyətlə, ölkəmizdə olan 160 muzeyə 2004-cü il ərzində 1 milyon 501 min 100 nəfər gəlmişdir ki, bu da ümumi əhalinin 18,7 faizi deməkdir. Bu rəqəm arta da bilərdi. Təbii ki, muzey müəssisələri elə sosial - mədəni, elmi - maarif-tədris, tərbiyəvi əhəmiyyətə malik müəssisələrdir ki, körpə yaş qrupundan başqa əhalinin bütün yaş qrupuna mənsub təbəqələri bu müəssisələrlə sıx əlaqə saxlaya bilərlər, bir şərtlə ki, muzeylər mövcud məkan və zaman şəraitində mümkün funksiyaları yerinə yetirə biləcək mühiti yarada bilsinlər və bu səbəbdən də maraq dairələri genişləndirilsin. Faktlara nəzər salaq.

Bakı şəhərində yerləşən Binəqədi, Əzizbəyov, Xətai, Qaradağ, Nərimanov, Nəsimi, Nizami, Sabunçu, Səbail, Suraxanı və Yasamal rayonları üzrə mövcud 30 muzeyə gələnlər 382 min 100 nəfər olmuşdur ki, bu Bakıda yaşayan əhali sayının 19,1 faizini təşkil edir. Bakı şəhərinin təkcə Səbail rayonundakı 20 muzeyə gələnlərin sayı 358 min nəfər olmuşdur ki, bu da iki səbəblə əlaqədardır, birincisi, muzeylərin əksər hissəsi bu rayondadır, ikincisi, əhalinin say çoxluğu ilə bu rayon fərqlənir. Amma birinci amil mühüm sayılmalıdır.

Abşeron iqtisadi rayonu (Abşeron, Xızı və Sumqayıt) üzrə 4 muzeyə gələnlərin sayı 13 min 500 nəfər təşkil edir ki, bunun da 9,5 min nəfəri Sumqayıt muzeylərinə gələnlərin payına düşür.

Gəncə - Qazax iqtisadi rayonu (Gəncə, Naftalan, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar, Qazax, Samux, Şəmkir, Tovuz) üzrə 23 muzeyə il ərzində 130,3 min tamaşaçı gəlmişdir. Burada muzeyə gələnlərin sayı etibarilə çoxluğu əsasən Gəncə (20 min nəfər), Goranboy rayonu (13,8 min nəfər) və Qazax rayonu (63,4 min nəfər) təşkil edir.

Şəki - Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala və Şəki) üzrə illərində 14 muzeyə cəmi 135, 2 min nəfər tamaşaçı gəlmişdir. Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin say etibarilə çoxluğu əsasən Qax rayonu (41 min nəfər), Qəbələ rayonu (71 min nəfər) və Oğuz rayonu (10,9 min nəfər) üzrə təşkil edir.

Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran) üzrə 11 muzeyə gələnlərin sayı 2004-cü ildə 151,3 min nəfər olmuşdur:

Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin sayı çoxluğuna görə Astara rayonu (55,7 min nəfər), Cəlilabad rayonu (23,3 min nəfər), Masallı rayonu (20,2 min nəfər) və Lənkəran rayonu (43,6 min nəfər ) fərqlənmişdir.

Quba - Xaçmaz iqtisadi rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar və Siyəzən) üzrə 6 muzeyə gələnlərin sayı il ərzində 64,5 min nəfər olmuşdur. Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin say çoxluğu baxımından Dəvəçi rayonu (38,1 min nəfər), Qusar rayonu (14,8 min nəfər) və Xaçmaz rayonu (8 min nəfər) fərqlənmişdir.

Aran iqtisadi rayonu (Əli Bayramlı, Mingəçevir şəhəri, Yevlax, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar və Zərdab) üzrə 23 muzeyə gələnlərin sayı il ərzində 351 min nəfər olmuşdur. Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin say çoxluğu etibarilə Əli Bayramlı rayonu (12,1 min nəfər), Mingəçevir şəhəri (52,3 min nəfər), Ağdaş rayonu (47,2 min nəfər), Bərdə rayonu (15 min nəfər), Göyçay rayonu (12 min nəfər), Kürdəmir rayonu (84 min nəfər), Neftçala rayonu (10,6 min nəfər), Saatlı rayonu (13,5 min nəfər), Salyan rayonu (34,3 min nəfər) və Ucar rayonu (27 min nəfər) fərqlənmişdir.

Yuxarı Qarabağ iqtisadi rayonu (Xankəndi, Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl və Fizuli) üzrə 18 muzeyə gələnlərin sayı cəmi 13,7 min nəfər olmuşdur. Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin say çoxluğu Tərtər (3,3 min nəfər), Cəbrayıl (3,3 min nəfər) və Xocalı (2,9 min nəfər) rayonlarında nəzərə çarpır.

Kəlbəcər - Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı) üzrə 2004-cü ildə 5 muzeyə gələnlərin sayı 8,1 min nəfər təşkil etmişdir ki, say çoxluğu baxımından bu iqtisadi rayonda Kəlbəcər rayonu (8,1 min nəfər) fərqlənmişdir.

Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı) üzrə 6 muzeyə il ərzində gələnlərin sayı 31 min nəfər olmuşdur. Bu iqtisadi rayonda muzeylərə gələnlərin say çoxluğu əsasən İsmayıllı (17,1 min nəfər) və Ağsu (8,1 min nəfər) rayonlarının payına düşür.

Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək rayonu, Culfa rayonu, Ordubad rayonu, Sədərək rayonu, Şahbuz rayonu, Şərur rayonu) üzrə il ərzində 20 muzeyə gələnlərin sayı 220,3 min nəfər təşkil edir. Bu iqtisadi rayon üzrə muzeylərə gələnlərin say çoxluğu əsasən Naxçıvan şəhərində (155,2 min nəfər), Babək rayonunda (15,2 min nəfər), Ordubad rayonunda (12,5 min nəfər) və Şərur rayonunda (19,2 min nəfər) nəzərə çarpır.

Müqayisələr nəticəsində ayrı-ayrı iqtisadi rayonlarda muzeylərə gələnlərin sayı fikrimizcə aşağıdakı amillərlə bağlı olmuşdur:

1. İqtisadi rayonda muzeylərin say etibarilə çoxluq təşkil etməsi.

2. İqtisadi rayonda əhali kütləsinin sıxlığı.

3. Sənaye mərkəzlərindəki sosial - iqtisadi fəaliyyətin səviyyəsi.

4. Şəhər, rayon və qəsəbələrdəki muzeylərin fəaliyyətlərinin yüksək səviyyədə təşkil edilməsi.

5. Yerli şəraitin, mühitin öyrənilərək əldə olunan nəticələrə müvafiq muzey fəaliyyətinin təşkili, yaş qruplarına uyğun sərgi və tədbirlərə yer verilməsi, yaş qruplarına uyğun sərgi və tədbirlərə yer verilməsi, maraqların nəzərə alınması.

6. Muzeyin yerləşdiyi mühitdə elm, təhsil, tərbiyə müəssisələri, idarə və təşkilatlarla sıx qarşılıqlı əlaqələrin yaradılması, istirahət zonalarında səyyar sərgi və tədbirlərin təşkili.

7. Düşmən tapdağı altında olan rayonlara məxsus muzeylərin digər şəhər və qəsəbələrə köçürülməsi və həmin rayonların əhalisinin qaçqın şəklində pərakəndə yaşaması.

Azərbaycanın bir sıra MDB ölkələri ilə 2003-cü ilin müqayisəsində də məlum olmuşdur ki, muzeyə gələnlərin aktivlik dərəcəsi yuxarıda göstərilən bəzi amillər-

lə, xüsusən də ölkədə əhalinin sayı və sıxlığı ilə bağlıdır. Məsələn, Azərbaycanda 159 muzeyə gələnlərin sayı 1,1 milyon nəfər olmuşsa, Gürcüstanda 112 muzeyə gələnlərin sayı 0,4 milyon, Belarusda 136 muzeyə gələnlərin sayı 3,6 milyon, Qazaxıstanda 143 muzeyə gələnlərin sayı 3,8 milyon, Qırğızıstanda 44 muzeyə gələnlərin sayı 0,7 milyon, Moldovada 76 muzeyə gələnlərin sayı 0,7 milyon, Rusiyada 2229 muzeyə gələnlərin sayı 78,6 milyon, Tacikistanda 39 muzeyə gələnlərin sayı 0,5 milyon , Ukraynada 394 muzeyə gələnlərin sayı isə 17,6 milyon nəfər olmuşdur.

Lakin əhalinin hər min nəfərinə görə muzeylərə gələnləri MDB ölkələrinin bəziləri ilə müqayisə etdikdə Azərbaycanda bu nəticə heç də ürəkaçan deyildir. Təkcə 2003-cü ilin nəticələrinin müqayisəsinə nəzər yetirsək, Azərbaycanda 139 nəfər, Belarusda 369 nəfər, Qazaxıstanda 253 nəfər, Qırğızıstanda 142 nəfər, Moldovada 208 nəfər, Rusiyada 545 nəfər, Ukraynada 370 nəfər, Gürcüstanda 96 nəfər, Tacikistanda isə 82 nəfər təşkil edir. Göründüyü kimi, Gürcüstan və Tacikistan istisna olmaqla, digər MDB ölkələrindən Azərbaycan bu göstəriciyə görə geri qalır.

Azərbaycan zəngin tarixi - mədəniyyət abidələrinə malik ölkədir. Təbiidir ki, ölkəmizin hər bir şəhərində, rayonunda, kəndində tarixi - mədəniyyət abidəsi nümunəsi mövcuddur ki, bu da xalqımızın avtoton xalq olduğunu bir daha sübut edir. 2004-cü ildə dövlətimizin mühafizəsində olan daşınmaz milli tarixi - mədəniyyət abidələrinin sayı 6308-dir. O cümlədən arxeoloji abidələrimiz 2044 ədəd, memarlıq abidələri 3860 ədəd, bağ-park, monumental və xatirə abidələri 196 ədəd, dekorativ, tətbiqi sənət abidələrinin sayı isə 208 ədəddir. Yəni, faiz nisbətində götürsək, memarlıq abidələri ümumi abidələrin 61% - ni, arxeoloji abidələr 33% - ni, dekorativ, tətbiqi sənət abidələri 3%-ni, bağ -park, monumental və xatirə abidələri 3%-ni təşkil edir.

Dövlət mühafizəsində olan daşınmaz tarixi - mədəniyyət abidələri əhəmiyyətinə görə məlum olduğu kimi dünya əhəmiyyətli, ölkə əhəmiyyətli və yerli əhəmiyyətli olmaqla üç yerə bölünür. Ölkəmizdə 2004-cü ildə mövcud olan 65 dünya əhəmiyyətli daşınmaz tarixi - mədəniyyət abidələrindən 44-ü arxeoloji, 21-isə memarlıq abidələridir. Ölkə əhəmiyyətli 2034 daşınmaz tarixi - mədəniyyət abidələrindən 1616-sı arxeoloji, 359-u memarlıq, 59-u isə bağ - park, monumental və xatirə abidələridir. 4209 ədəd yerli əhəmiyyətli daşınmaz tarixi - mədəniyyət abidələrindən 384-ü arxeoloji, 3480 - i memarlıq, 137-si bağ-park, monumental və xatirə abidələri, 208 - i isə dekorativ, tətbiqi sənət abidələridir. Qədim tariximizin cüzi hissəsini özündə əks etdirən və bu günə çatdıran çox zəngin tarixi - mədəniyyət abidələrimizin qorunmasına, bərpasına dövlət qayğısının daha da artırılmasına böyük ehtiyac vardır. Eyni zamanda abidələrimizin bərpası, tədqiqi, təbliği, əvvəlki təsir gücü ilə gələcək nəsillərə ötürülməsi mexanizminin hazırlanması və kompleks tədbirlərin həyata keçirilməsinin vaxtı çatmışdır. Muzeyşünaslarımızın, tədqiqatçılarımızın ayrı-ayrı abidə tədqiqatçılığına ciddi ehtiyac duyulur. Xüsusən, bərpaya ehtiyacı olan dünya, ölkə və yerli əhəmiyyətli abidələrimizin bərpası hazırki durumumuzda çox vacibdir. Çünki, abidələrimiz özündə tariximizi, mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı, ümumiyyətlə bütün fəaliyyətimizi özündə cəmləşdirməklə bərabər, gələcək tarixə aparır. Dünya əhəmiyyətli "Atəşgah" məbəd kompleksi (XVIII əsr), "İçəri şəhər" memarlıq - şəhərsalma kompleksi (VI - XIX əsrlər), Şirvanşahlar Sarayı kompleksi (XIII-XV əsrlər), Xəzəryanı müdafiə qurğuları, qalalar, karvansaralar və ovdanlar kompleksi (ilk orta əsrlər, XVIII əsr), Qulu Musa oğlu Türbəsi (1314-cü il), "Allah-Allah" türbəsi və Nüşabə qalası (1322-ci il), Sınıq körpü (XII əsr), Qax rayonunun Ləkit kəndində V əsrə aid məbəd, Xınalıq kəndi (XII - XIX əsrlər), 11 və 15 tağlı Xüdafərin körpüləri (XI - XIII əsrlər), Lahıc Dövlət Tarix - Mədəniyyət Qoruğu (XV-XIX əsrlər), Yusif Küseyir oğlu Türbəsi (1161-1162-cı illər), Mömünə Xatun türbəsi (1186-1187-ci illər), Qarabağlar Tarix Memarlıq Kompleksi (XII-XIV əsrlər), Gülüstan türbəsi (XIII əsr), Ordubad Tarix - Mədəniyyət Qoruğu (XV-XIX əsrlər), "Yuxarı Baş" Tarix - Memarlıq Qoruğu və Şəki Xan sarayı (XVIII-XIX əsrlər), Şuşa Tarix Memarlıq Qoruğu (XVIII-XIX əsrlər), Gənc əsər monastrı (1238-ci il), Xudavənd monastrı (XIII - XVII əsrlər) kimi memarlıq, Azıx mağara düşərgəsi (palolit dövrü), Tağlar mağara düşərgəsi (poleolit dövrü), Damcılı mağara düşərgəsi (paleolit dövrü), Qazma mağara düşərgəsi (paleolit dövrü), Qobustan Dövlət Tarix - Bədii Qoruğu (mezolit - orta əsrlər), Əli - köməktəpə yaşayış yeri (enesolit dövrü), Çalağantəpə yaşayış yeri (eneolit dövrü), Leylantəpə (eneolit dövrü), Töyrətəpə yaşayış yeri (neolit - tünc dövrü), Baba Dərviş yaşayış yeri (tünc dövrü), I və II Kültəpə yaşayış yerləri (eneolit - tünc dövrləri), Sərkərtəpə yaşayış yeri (tünc dövrü), Üzərliktəpə yaşayış yeri (tünc dövrü), Qədim Naxçıvan şəhərinin xarabalıqları (e.ə. II minillik - orta əsrlər), Sarıca Minbərək nekropolu, Minbərək yaşayış yeri və Kurqanlar (tünc dövrü; eneolit - dəmir dövrü), Xocalı kurqanları (tünc - ilk dəmir dövrü), Niftalı kurqanları (tünc dövrü ), Çalxanqala kurqanları (tünc dövrü), Xoşbulaq kurqanları (son tünc - ilk dəmir dövrü), Kiş yaşayış yeri (antik dövr), Qədim Qəbələ şəhəri (antik dövr), Qədim Şamaxı şəhəri (antik dövr), Köhnə Gəncə, Köhnə Bərdə, Beyləqan yaşayış yeri, Şabran, Qədim Şəmkir şəhəri, Gilgilçay istehkamları kompleksi (orta əsrlər) və s. kimi arxeoloji abidələrə, minlərlə ölkə əhəmiyyətli, yerli əhəmiyyətli abidələrə malik çox qədim tarixə malik ölkəmizdə abidə tədqiqatçılığı davam etdirilməli, yeni abidələrin aşkarlanması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. Abidə zənginliyimizi dünya miqyasında, ölkə daxilində vaxtında dəyərləndirmək, tədqiq, təbliğ etmək, orta məktəb sistemi çərçivəsində isə maddi - mənəvi dəyərlərimizin aşılanması prosesinə ciddi diqqət yetirilməlidir. Hər şeydən əvvəl, bu iş bizim vətəndaşlıq borcumuzdur.

***S.A. ƏMİRXANOV,***
***pedaqoji elmlər namizədi***